Yeni Azərbaycan.- 2024.- 18 may, №88.- S.8.

# Tarixin varisləri...

## Beynəlxalq Muzeylər Günüdür



*Yeganə BAYRAMOVA*

Xarici ölkələrə getdiyimiz zaman ağlımıza ilk gələn yerlərdən biri muzeylərdir. Muzeylər bizə tarixi xarabalıqlar, keçmişdən qalan izlər və ya sənətkarların ən eksklüziv əsərlərini görmək imkanı yaradır. Ancaq muzeylərə sadəcə qiymətli əşyaların, maddi-mənəvi sərvətlərin saxlanıldığı yer kimi baxa bilmərik. Çünki burada qorunub-saxlanılan hər bir tarixi əhəmiyyət kəsb edən eksponat və əşya mənsub olduğu xalqın tarixini, qədimliyini əks etdirir.

**Dünyanın ən qəribə muzeyləri...**

Müxtəlif xarici ölkələrdə yerləşən bəzi muzeyləri qeyri-adiliyi ilə seçilir. Onlardan bir neçəsinə nəzər yetirək.

**Yalançı Muzey**

Almaniyanın Kyritz şəhərində dünyanın ən orijinal muzeylərindən biri olan Lügen Muzeyi yerləşir. Muzeydəki bütün eksponatlar saxta məhsullardır. Ancaq təəccüblüdür ki, mükəmməl rəssamın təxəyyülü böyükdür və o, bunu yumor hissi ilə sintez edir.

**Pis İncəsənət Muzeyi**

Amerikanın Dedem şəhərində yerləşən Pis İncəsənət Muzeyi qəribə və bənzərsiz əsərlər toplusunu təqdim edir. Muzey qurucusu indiyə qədər gördüyü ən qəribə şəkilləri seçib bir araya toplayıb. Sözügedən muzeydə 400-dən çox "pis" əsər sərgilənməkdədir.

**Saç Muzeyi**

Türkiyənin Kapadokya bölgəsinin qonaqları dünyanın ən böyük qadın xəz kolleksiyasına ev sahibliyi edən orijinal muzeyə gələrək buranı hər il ziyarət edirlər. Saç Muzeyi kiçik Avanos qəsəbəsində yerləşir. Muzeyin təməlinin tarixi inanılmaz dərəcədə maraqlı və romantikdir. 1979-cu ildə muzeyin qurucusu sevgilisindən ayrılanda və ondan xatirə istəyib. Qız isə ona saçlarından bir parça verib...

Muzeydə 16.000-dən daha çox saç qıvrımları sərgilənir. Muzeyin əsas ziyarətçilərini qadınlar təşkil edir.

**Zibil Muzeyi**

Nyu-Yorka səyahət imkanınız olarsa, Zibil muzeyini ziyarət etməyi yaddan çıxartmayın. Zibil dedikdə ağlınıza konfet kağızları, banan qabığı, boş süd şüşəsi filan gəlməsin. Burada bir zamanlar evlərin ayrılmaz parçalarından olan, lakin indi istifadə edilməyən əşyalardır. Lampalar, mebellər, kitab rəfləri, tablolar və s.

Bu gün, yəni mayın 18-i həm də dünya ölkələrində Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd edilir. Əlamətdar gün Beynəlxalq Muzeylər Şurasının (ICOM) təşəbbüsü ilə 1977-ci ildə təsis edilib.

Beynəlxalq Muzeylər Günü ölkəmizdə də geniş miqyasda qeyd edilir. "Şirvanşahlar Sarayı Kompleksi", Qız qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu, "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Hazırda ölkəmizdə fəaliyyət göstərən muzeylər və onların ekspozisiyaları azərbaycançılıq məfkurəsini uğurla təbliğ edirlər.

Zaman keçdikcə bütün sahələrdə olduğu kimi, muzeylərlə bağlı da yeni ideyalar yaranır. Lakin tarixin varisi sayılan muzeylər hər zaman sahib olduğu eksponatlarla əsrlər arasında körpü yaradan məkandır...